# AZƏRBAYCAN RESPUBLIKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/23** **1 may 2019-cu il**

**Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyanın hazırlanması barədə**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli Sərəncamını rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 1.13-cü "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyanın hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyanın hazırlanması məqsədilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri***

Vahid Novruzov – Auditorlar Palatasının sədri

***İşçi qrupunun üzvləri***

Aqşin Əhmədov – "Business Finance and Audit" MMC-nin auditoru;
Camal Həsənov – "Deloitte & Touche" MMC-nin Audit və əminlik üzrə direktoru;
Davud Məmmədov – "Davud Mamedov" MMC-nin direktoru, auditor;
Elşad Hacaliyev – Sərbəst auditor;
Qoşqar Əhmədov – Auditdə innovasiyaların tətbiqi şöbəsinin müdiri;
Nihad Axundov – "NZA Audit" MMC-nin direktoru, auditor;
Nəcəf Talıbov – Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri;
Rüfət Əliyev – "A Audit and Consulting" MMC-nin direktoru, auditor;
Səftər Vəlizadə – sərbəst auditor;
Yunis Salayev – "BDO Azərbaycan" MMC-nin direktoru, auditor.

2. İşçi qrupuna tapşırılsın ki, altı ay müddətində Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyanın layihəsinin təqdim edilməsini təmin etsinlər.

3. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**